MƏMMƏDLI R.U.
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aspirantı*

# AZƏRBAYCAN SSR-DƏ KITABXANA QURUCULUĞUNUN GENIŞLƏNDIRILMƏSI VƏ INKIŞAFI (XX əsrin 70-80-ci illəri)

1970-1990-cı illərdə mədəni quruculuq sahəsində həyata keçirilən tədbirlər kitabxana işinin inkişafına da müsbət təsir göstərmişdi. Rayonlarda, kənd yaşayış məntəqələrində kitabxanalar təşkil edilmiş, kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş, kitabxana işinin maliyyələşdirilməsinə diqqət artırılmışdır. Kitabxanaların mərkəzləşdirilməsi məsələsi respublikamızda da müvəffəqiyyətlə başa çatdırılmış, mühüm elmi-təcrübi nəticələr əldə edilmişdir.

Tədqiq olunan illərdə əhaliyə xidmət etmək üçün mədəniyyətimizin mühüm sahəsi olan böyük elmi, elmi-texniki, xüsusi, təhsil və kütləvi kitabxanalar şəbəkəsi yaranmışdı. Azərbaycan SSR-də 1970-ci ildə 25,4 milyon nüsxəyə qədər kitab fondu olan 2923 kütləvi kitabxana fəaliyyət göstərirdi. Bütün təşkilatların nəzdində olan kitabxanalarda 40 milyon nüsxə kitab və dövrü mətbuat var idi. [7, s. 1, iş 264, v. 48].

Respublika əhaliyə kitabxana xidmətinin təşkili sahəsində SSRİ-nin bir çox respublikalarından geri qalırdı. 1971-1974-cü illərdə respublikada 1087 yaşayış məntəqəsində hətta kütləvi və məktəb kitabxanası belə yox idi. 1473 kəndə isə klub olmasada kütləvi və məktəb kitabxanası vardır [7, s. 8, iş 250, v. 23]

Kitabxanaların yerləşdirilməsində problemləri aradan qaldırmaq üçün 1972-ci ildən başlayaraq SSRİ Nazirlər Soveti yeni tikilmiş yaşayış binalarının 1-ci mərtəbəsində kütləvi kitabxanaların yerləşdirilməsi üçün yer ayrılması haqqında İttifaq respublikalarına icazə verdi. Buna görə yaşayış sahələrinin tikintisinə qoyulan kapital qoyuluşun 0,3%-nin bu məqsədlə istifadəsinə başlandı [7, s. 5, iş 86, v. 10]. 1971-ci ildən isə Azərbaycan SSR-də açılan hər yeni kitabxananın fondunda ən azı 1000 nüsxə kitab olmalı idi [7, s. 5, iş 86, v. 1].

M.F.Axundov adına Dövlət Kitabxanası bütün kitabxanaların metodik mərkəzi kimi işləyir, kitabxanaşünaslıq və biblioqrafiya sahəsində böyük elmi-metodiki və elmi-tədqiqat işləri aparırdı. 1970-ci ildə M.F.Axundov adına kitabxananın 1,5 milyon kitab saxlama fondu binasının tikintisi həyata keçirilmişdir[7, s. 1, iş 251, v. 72]. 1973-cü ildə M.F.Axundov adına kitabxananın 50 illiyi qeyd olunmuşdu. Kitabxana unukal kitab fonduna malik idi. Orada 2,8 mln nüsxə yerli və xarici ədəbiyyat saxlanılırdı. Kitabxana bütün ölkələrdə çap edilən nəşrləri, o cümlədən hər il orta hesabla 150 min nüsxə yeni kitab qəbul edirdi [7, s. 8, iş 97, v. 1].

M.F.Axundov adına dövlət kitabxanasında 1.01.1981- ci ildə 3312,0 min kitab var idi [7, s. 8, iş 164, v. 3]. 1982-ci ildə SSRİ-nin 244 kitabxanası ilə əməkdaşlıq etmiş, onlara 2739 nüsxə kitab göndərilmiş və 4210 nüsxə kitab alınmışdır [7 s. 8, iş 206, v. 12]. M.F.Axundov adına kitabxanada 1979-cu ildən beynəlxalq abonoment fəaliyyət göstərirdi. 1982-ci ildə dünyanın 5 ölkəsinin 5 kitabxanasından 5 sifariş olunmuş, 16 ölkəyə isə 52 sifariş göndərilmişdir [7 s. 8, iş 206, v. 13].

F.Köçərli adına uşaq kitabxanası bütün yaşlar üzrə uşaqlara xidmət edirdi. O, hər il 30 min uşaq ədəbiyyatı qəbul edirdi [7, s. 8, iş 88, v. 16]. Respublikada 1971-ci ildə uşaqlara xidmət edən 3 min kitabxana var idi [7, s. 1, iş 258, v. 230]. 1975-ci ildə yeniyetmələrə kitabxana xidmətini yaxşılaşdırmaq üçün C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası yaradıldı[7, s. 8, iş 128, v. 3].

1975-ci ildə Azərbaycanda 2486 kənd və qəsəbə kitabxanası var idi. Amma təəssüfki, onların hamısı iri kəndlər və yaşayış məntəqələrində idi. Respublikada bu illərdə 300 nəfər yaşayan 1164 kiçik yaşayış məntəqəsində hərəkət edici və stasionar kitabxanaların filialları yaradılmışdır [7, s. 8, iş 110, v. 115]. 1977-ci ildə Azərbaycan SSR-də 4000 hərəkət kitabxanası var idi [7, s. 8, iş 140, v, 5].

Tədqiq olunan illərdə xüsusi tipli 17 yeni kitabxana binası tikilmiş, kitabxanalara 32.214.750 manatlıq avadanlıq göndərilmişdir. Bu dövrdə kitabxanalara 19.296.450 milyon manatlıq 19.234.185 nüsxə kitab alınmış, kitabxana oxucularının sayı 1.149.222 nəfər artmışdır [ 2, v. 49].

Lakin buna baxmayaraq kitabxana xidmətində hər şey yaxşı deyildi. Bir çox kitabxanaların fəaliyyətinin yaxşılaşdırılmasına ehtiyac var idi. Təmirə ehtiyacı olan kitabxanaların sayı ildən-ilə artırdı. Kitabxanaların 90%-nin oxu zalı yox idi. [7, s. 8, iş 203, v. 38]. Təəssüf doğuran faktlardan biri o idi ki, 1983-cü ildə respublikanın kənd kitabxanalarının 204-ü o cümlədən Yardımlı rayonunda 35, Gədəbəy rayonunda 20, Dəvəçidə 16-sı və s. rayonlarda şəxsi evlərdə idi [ 1, s. 79].Bakı şəhərində də kitabxana işində çətinliklər var idi. Beləki, 1984-cü ildə Əhmədli kimi qəsəbədə 200 minə yaxın əhaliyə 3 əlverişsiz şəraitdə fəaliyyət göstərən kitabxana var idi [7, s. 8, iş 206, v. 71].

1980-1984-cü illərdə İmişli, Zərdab, Neftçalada yeni kitabxana binası tikilmiş, Lerik, Babək, Sabirabad, Əli-Bayramlıda və s. rayonlarda 100-dən artıq kitabxana yeni binalarla, əsasən fin evləri quraşdırılıb verilmişdi[7, s. 8, iş 206, v. 224]. 1987-ci ildə Respublikada 36,6 mln nüsxə kitab fonduna malik olan 4247 kütləvi kitabxana fəaliyyət göstərirdi. Bu kitabxanalardan respublika əhalisinin 48% istifadə edirdi[7, s. 8, iş 208, v. 2].

Sov.İKP MK 1974-cü il 8 mayda "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" qərar qəbul etdi[7, s. 8, iş 130, v. 8]. Qərarın əsas məqsədi kitabxana işinin mərkəzləşdirilməsi idi. Bu məqsədlə Bakıda kitabxanalarda 10, digər şəhər və rayonlarda "Dövlət kütləvi kitabxanaların şəbəkəsinin mərkəzləşdirilməsinin əsas istiqamətləri" mövzusunda 5 seminar keçirildi [7, s. 8, iş 130, v. 45]. 80-ci illərin ortalarında mərkəzləşmə işi müvəffəqiyyətlə başa çatdırıldı. Mərkəzləşmə nəticəsində Azərbaycan SSR-də tərkibində 3685 kənd kitabxana-filialı olan 70 MKS fəaliyyət göstərirdi. Kənd kitabxanalarında rayon kitabxanaları mərkəzi kitabxana kimi, rayon uşaq kitabxanaları və müstəqil kənd kitabxanaları isə onların filialı kimi formalaşdı. Respublikamızın 8 şəhərində 111 filialı olan mərkəzləşdirilmiş sistem yaradılmışdı.

1975-ci ildə Elmlər Akademiyasının fundamental kitabxanasının Mərkəzləşdirilməsinə başlanıldı. İlin əvvəllində şəbəkəyə daxil olan 25 kitabxananın 19-u kitabxananın filialına çevrildi [7, s. 8, iş 107, v. 74]. 1979-cu ildən Mərkəzi kitabxana sistemlərinin gənclər kitabxanalarının filiallarının şəbəkəsinin yaradılması qərarı verildi. 1983-cü ildə Azərbaycan SSR-də 36 şəhər və rayonda 36 gənclər kitabxanası şəbəkəsi filialı və bölməsi var idi. Lakin 29 rayonda gənclər kitabxanası filialı açılmamışdır [7, s.8, iş 206, v. 1].

1981-ci ildən dövlət kütləvi və həmkarlar ittifaqları kitabxanalarının mərkəzləndirilməsinə başlanmışdı. 1981-ci ilin yanvarında Bakı şəhəri kitabxanalarının Mərkəzi kitabxana sisteminə keçidi başa çatdı[7, s. 8, iş 164, v. 1]. 1985-ci ildə respublikanın 34 kənd rayonunda 1957 dövlət və 48 həmkarlar ittifaqı kitabxanalarının işi mərkəzləndirilmiş şəkildə idarə olunurdu [3, v. 140].

Yeni sistemə keçid rayonlarında xidmət və istifadə də özünün üstünlüklərini göstərirdi. Beləki, 1976-cı ildə kitabxanalarda 25.496 min oxucu olmuşdusa, 1977-ci ildə

bu sistem 26.499 min nəfərə xidmət etmişdir. İl ərzində kitab fondunun dövriyəsi 1,7 dəfə, orta oxucu sayı 23-ə çatmışdır [7, 8, iş 140, v. 116].

Yeni sistemin yaranması kitabxanaların potensial imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmiş, daha zəngin ədəbiyyat fondu, təkmilləşmiş məlumat aparatı olan kitabxana müəssisələrinin meydana gəlməsinə səbəb olmuşdur. Mərkəzləşmə zamanı kütləvi kitabxanaların kitab fondu 5 milyon nüsxə, kitab verilişi 9 milyon nüsxə, oxucuların sayı 513 min nəfər artmış, 332 yeni kitabxana açılmışdır. Bütün kitabxanalarda kataloqlaşdırma işinə başlanmışdır. Müqayisə nəticəsində məlum olur ki, 20 rayon kitabxanasında mərkəzləşdirilmə sisteminə keçəndən sonra 1 il ərzində oxucuların sayı 5 min artmış və 1 milyona qədər əlavə kitab verilmişdir [2, s. 43].

Təəssüfki, kitabxanaların işində ictimai-siyasi, o cümlədən partiya ədəbiyyatının təbliğinə geniş yer verilirdi. Kitabxanalarda bu cür ədəbiyyatın sayı 1990-cı ildə 294 milyon nüsxəyə çatmışdı. [4, v. 362].

Kadr məsələsinin həlli sahəsində də əhəmiyyətli işlər görülmüşdür. 1980-1984-cü illərdə kitabxana işçilərinin sayı 1498 nəfər, o cümlədən 145 nəfər ali, 331 nəfər ali ixtisas təhsilli, 680 nəfər orta ixtisas təhsilli kitabxanaçının hesabına çoxalmışdı. 1987-ci ildə kitabxanalarda 30 min nəfər işçi çalışırdı. Onların 60% -nin ali və orta ixtisas təhsili var idi. Ən aşağı göstəricilər rayonlarda idi. Məsələn kitabxanalarda ali və orta ixtisasa malik işçilər Daşkəsən 10%, Saatlı 29%, Cəlilabad 30% rayonlarında təşkil edirdi [7, s. 8, iş 129, v. 10]. 80-ci illərin ortalarında 4 milyona yaxın kitab fonduna malik 300-ə qədər Həmkarlar İttifaqının kitabxanası var idi [5, s. 3].

1970-ci ildə Azərbaycanda 25 milyon 400 min nüsxə kitab fonduna malik 2923 kütləvi kitabxana var idisə [ 7, s. 8, iş 210, v. 298], 1980-ci ildə 32,1 milyon kitab fondu olan 3837 kütləvi kitabxana fəaliyyət göstərmişdir [8, v. 132]. 1990-cı ildə respublikada kütləvi kitabxanaların sayı 4605 minə çatmış və onlarda 45,3 milyon nüsxə kitab jurnal və s. ədəbiyyat saxlanılırdı. Şəhərdə kitabxanaların sayı 708, onların fondunda 22,5 min nüsxə kitab jurnal və s. ədəbiyyat olmuş, oxucu sayı isə 2393 min nəfər idisə, kənddə müvafiq olaraq 3897 min və 22,8 milyon nüsxə kitab jurnal və s. ədəbiyyat, oxucu sayı 1752 min nəfər təşkil etmişdir [6, s. 175]. Tədqiq olunan 20 ildə kitabxanaların sayı 1682 ədəd, kitab fondu isə 19,9 milyon nüsxə artmışdır.

Ümumilikdə dövlət tərəfindən kitabxana fəaliyyətini yaxşılaşdırmaq üçün təşkilati və metodik işlər görülmüşdür. Kitabxana işi haqqında dövlət qərarları qəbul edilmiş, respublika kütləvi kitabxana şəbəkəsi mərkəzləşdirilmiş, kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş və kitabxana şəbəkəsi kəmiyyətcə artmış, həmçinin əhaliyə kitabxana xidmətinin təşkilində və məzmununda yeni keyfiyyət dəyişikliyi baş vermişdi.

## *ƏDƏBIYYAT:*

1.Hüseynov S.H. Azərbaycan kəndinin iqtisadi, sosial və mədəni inkişafı. Bakı, ADU nəşriyyatı, 1986. 92 s.
2.Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı, Azərnəşr, 2006. 312 s.
3.Qaffarov T.B. Azərbaycan SSR kənd əhalisinin maddi rifahı və mədəni səviyyəsinin yüksəldilməsi (60-80-ci illərin birinci yarısı).Bakı,Elm,1986.180 s.
4.Qaffarov T.B.Azərbaycan kənd əhalisinin həyat tərzi: ümumbəşəri və maddi dəyərlərin deformasiyası (1960-1990). Bakı, Elm, 1992. 408 s.
5.Quliyev T.F. Azərbaycanda kitabxanaçılıq işi. Bakı, ADU nəşr. ,1986. 87 s.
6.Müstəqil Azərbaycan 10 il. Statistik məcmuə. Bakı, Səda, 2001.

7.S. Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət arxivi, Fond № 501, siyahı 1, iş 251, 258, 264, siyahı 5, 86, 90, siyahı 8, iş 88, 97, 107, 128, 129, 110, 130, 164, 203, 208, 210, 250.
8.Народное хозяйство Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник. Баку, Азернешр, 1980. 375 с.

**Р.У. МАМЕДЛИ**
***Аспирант Института Истории имени А.А. Бакыханова НАНА***

**РАЗВИТИЕ И РАСШИРЕНИЕ БИБЛИОТЕЧНОЙ СТРОИТЕЛЬСТВО В АЗЕРБАЙДЖАНСКОЙ ССР (70-80 ГГ. XX ВЕКА)**

Данная статья посвящена одной из основных частей культуры - проблеме библиотечной строительства в Азербайджане 70-80 гг. XX века. Здесь на основании фактического материала раскрываются основные вопросы развития и расширение библиотек в Азербайджанской ССР. Том числе в статье освящены вопросы и итоги централизатции библиотек.

**R.U.MAMMADLI**
***NASA the post graduate student of the İnstitute of History named after A.A.Bakıxanov***

**BROADENING AND DEVELOPMENT OF THE LIBRARY BUILDINGING IN THE AZERBAIJAN SSR (70-80 YEARS OF THE XX TH CENTURY)**

Giving article have been devoted one of inseparable areas of the culture to the library building. İn the article has been reflected expanding of the net of activities of the libraries and centralizing of the libraries in 70-80 years of the XX th centuty in the Azerbaijan SSR.

***Rəyçilər: t.e.d.T.H.Musayeva, t.e.d.L.L.Həsənova.***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın Sovet dövrü tarixi» şöbəsinin 24 fevral 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***